İnam Evi
dərgisinin
Özəl Buraxılışı

15 Günəş Ayı, 38-ci il
(15.03.2016)

# Ata Yolu




## Asif Ata

# İNSANLAŞMAQ

Zəmanə İnamını - İnamsızlıq saydım.
İnam yaratdım.
Zəmanə İdrakını - İdraksızlıq saydım.
İdrak yaratdım.
Zəmanə Mənəviyyatını - Mənəviyyatsızlıq saydım.
Mənəviyyat yaratdım.
Zəmanə İradəsini - İradəsizlik saydım.
İradə yaratdım.
Zəmanə Amalını - Amalsızlıq saydım.
Amal yaratdım.
Zəmanə Əməlini - Əməlsizlik saydım.
Ocaq qaladım.
Təqiblərə yüksəldim. Ata çağırıldım.
Bəşərin nicatı - İnsanlaşmaqdadır.
İnsanlaşın - İnsanlaşdırın...

***Şölə Ayı, 7-ci il. Bakı. (İyun, 1985-ci il).***

# Asif Atanın ruhsal kimliyi və Ocaqçılıq baxışı



*Soylu Atalı*
*Mütləqə İnam Ocağının Yükümlüsü*

Ürəyinizdə Ata Günəşi olsun sayğılı soydaşlarımız - çağdaşlarımız, sabahdaşlarımız!

Sizlərə sunduğumuz bu "Özəl Buraxılış"ımızdakı fikirlər, bilgilər insanlığın üzərinə yeriyən qaranlıqları işıqlandırmaq istəklərimizi ifadə edir. Bu bir Əqidə yoludur. Bu Əqidə - xalqı, bütövlükdə insanlığı içəridən çökdürən gedişlərə direniş göstərən İnsanlıq gücüdür. Bu yolu Asif Ata yaratmış, bizlərə öyrətmiş, sizlərə örnək vermişdir.

Bir ev uçanda, uçurulanda onu hər kəs görür. Dünya dağılanda, dağıdılanda isə onu hər kəs görmür. Çünkü dünyanın daşı-divarı dağıdılmır, mənəviyyatı, ədaləti, həqiqəti dağıdılır. Bu dağıntıların içində insanın, xalqın, bəşərin yaşamı pozuntulara uğrayır. Pozuntulardan doğan qaranlıq isə təkcə bugündə dayanmır, həm də gələcəyin üzərinə yeriyir. Bu fəlakətin miqyasını gələcəyi düşünənlər, gələcəyi görənlər anlayır və bütün varlığını bu fəlakətlərə direniş göstərməyə kökləyirlər. Belə insanlar bəşər tarixində tək-tək olublar. Ancaq Xeyiri qorumaq örnəyi yaradıblar. Bu örnəyi yaratmaq yükü bu gün (böyük anlamda) Asif Atanın üzərinə düşübdür. İndi bizlərin, sizlərin görəvi bu yükü anlamaq, ona doğmalaşmaqdır.

Sayğılı oxucu, bu yığcam girişdən sonra Asif Atanın ruhsal kimliyi ilə, yaratdığı təlimlə tanış olmağı sənin ixtiyarına buraxırıq. Bu tanışlıq ulusal yöndən, daha geniş anlamda İnsanlıq yönündən sənin düşüncələrinə yön, ürəyinə təpər verərsə bundan sevinər və qürur duyarıq.

Asif Ata Azərbaycanın böyük filosofudur, yaratdığı Mütləqə İnam Dünyabaxışı ona Atalıq haqqı qazandırmışdır. Atalıq - semitlərdəki peyğəmbərlik anlayışı ilə tutuşdurulan, ancaq daşıdığı mənə yükünə görə ondan dərin və yüksək olan anlayışdır. Çünkü peyğəmbərlik anlayışının semitlərə bağlı qurtarıcılıq (xilaskarlıq) ideyalarında yalana tapınma var. Atalıqda yalan yoxdur, olması mümkün deyil. Yalana dayanan Atalıq olmur.

Biz Asif Ataya peyğəmbər də deyirik. Ancaq bu adlandırma onun dünyabaxış yaradıcısı olduğunu bildirmək üçündür, semitlərin "peyğəmbər" anlayışına verdikləri keyfiyyətlərə görə deyil. Yəni Asif Ata "Göylərin" göndərdiyi fikir-vəhylərə çevirici kimi yanaşmır (tərcümanlıq eləmir). Asif Atanın yazdığı, dediyi fikirlər özünündür, Allahla yerdəkilər arasında araçılıq (vasitəçilik) görəvi daşımır.

Asif Atanın soykökü türk ulusundandır. Ancaq o, bəşərə ayrı-seçkiliklə yanaşmır, onu bütöv götürür. ...Burada bizim semit ifadəsini tez-tez vurğulamağımız isə dünyabaxış başqalığını (fərqini) aydınlaşdırmaq üçündür. Bundan sonra da (yazıboyu) bu ifadəyə rast gəlinə bilər. Biz Asif Atanın Mütləqə İnam Təlimini sunuruq, həm də onun başqa təlimlərdən üstünlüyünü dilə gətiririk. Ona görə bəzən başqa təlimlərin eyni açıdan olan anlayışlarını Mütləqə İnam Təlimindəki anlayışlarla yanyana gətirib tutuşdurmalarla göstərməyə çalışırıq.

## Mənadan danışmayan söz qutsal deyil

İndi bu yazıda Asif Ata Dünyabaxışının insana, dünyaya, vətənə, bəşərə, yanaşmasına qısaca aydınlıq gətirməyə çalışacağıq. Eyni halda bu gün yurdumuzda hakim etkiyə çevrilən İslam dünyabaxışının yanaşma prinsiplərinə də toxunacağıq. Biz tutuşdurmalar etmədən də fikirlərimizi yaza bilərdik. Ancaq toplumumuz ruhsal qaranlığa, qapalılığa alışdığı üçün ruhuna, mənliyinə hakim olan özgəliyi tanımaq, dərk eləmək zəhmətlərinə qatlaşmır. Buna görədir ki, savaşan işıqlı, aydın düşüncəli insanların işi daim çətinə düşür. Ona, içində olduğu qaranlığı - milli şüurun gəlişməsinə əngəl olan geriçi ideyaları aydınlatmaq gərəkir. Onu da deyək ki, geriçi ideyaların etkisinə uğrayanlar toplumun təkcə sıradan kütləsi deyil, bir sıra elmli, təhsilli adamlar da bu cərgədə dayanırlar. Bunların çoxu xeyiri, şəri nişan verməyə cəsarəti çatmayanlardır. Onlar "ağrımayan başlarına soğan doğramaq" istəmirlər, millətin gələcəyini düşünmək onların dərdinə qalmayıb. "Dilini dinc saxlayıb başını qorumaq" onlar üçün ən böyük qeyrətdir. Bəzi elmli, təhsilli adamlar isə Azərbaycana qarşı olan qüvvələrin buyruğunda dayanıb geriçi ideyaların yayılmasını həyata keçirirlər. Bununla da, həm toplumun məsləkdaşı kimi görünürlər, həm də özlərinə siyasi karyera qururlar. Buna, Azərbaycanın Milli Məclisində, dövlət strukturlarında yer tutub özünü mömin kimi aparanları misal göstərmək olar. Beləcə, yalanlarla, cəsarətsizliklərlə yüklənənlərin ucbatından milli şüurun sıradan çıxarılması davam etdirilir. Sonucda insanlarımızın, gəncliyimizin sevgisi, diqqəti vətənə deyil, vətəndən qıraqdakı yalançı tapınaqlara bağlanır. Bütün bunlar bizim bölünmələrimizə, parçalanmağımıza nədən olur. Həm Vətənimiz parçalana-parçalana əldən gedir, həm də ulusal varlığımız dağıla-dağıla sıradan çıxarılır. Bütün bunların qarşısını almaq üçün ideya boşluğunu, ideoloji boşluqları doldurmaq gərəkdir. Bu gün biz bu gücü, bu qüdrəti Asif Atanın fəlsəfəsində, dünyabaxışında tapa bilirik. Qalır bunu istəmək, buna çalışmaq. İstəkləri doğrultmaq, çalışmaları yürütmək isə yol başlamaq tələb edir. Yol da bizə - Ocağa doğrudur. Biz ulusal özümlüyü təmsil edirik. Bizi az, gücsüz, yadlığı isə güclü sayıb bizdən uzaqlaşaraq yadlığa yaxınlaşmaq - tarixi faciələrimizi davam eləmək deməkdir.

Sayğılı oxucu, sayğılı soydaşım, biz Asif Atanın ideya-prinsiplərini ortaya qoyuruq.



Sən də oxu, öyrən, əgər yanlış bir şey görərsənsə, bizə iradlarını söylə, görək sənin üçün yad baxışlardan bunun nəyi əskikdir. Ancaq ulusumuzu, bütövlükdə insanlığı yaşadan dəyərləri yadlığın ayağına verib tarixi yanlışlarımızı davam eləmə. Bu, bizim sənə insanca üz tutmağımız, soydaşca ərkimizdir...

"XX yüzilin bayquşları İnsana İnam Bayrağını tapdalamağa çalışırlar. Biz həmin Bayrağı başımızın üzərinə qaldırırıq...

Bəşərin nicatı insanlaşmaqdadır. İnsanlaşın - İnsanlaşdırın!" - bu çağırışla başladı Yola Asif Ata. O, dünyanın, insanın ruhsal anlamını öyrənib dərk eləyəndən sonra bu harayı çəkdi. Anladı ki, dünya göründüyünə bərabər deyil, onun mənası göründüyündən çox dərindədir. Dünya göründüyünə bərabər olsaydı, çoxdan dağılardı. Asif Ata dünyanın qıraq qüvvə tərəfindən oyun-oyuncaq kimi yaradıldığı fikrini rədd elədi. O, dünya haqqında insana nikbinlik gətirən, danılması mümkün olmayan ideya-düşüncə sistemi ortaya gətirdi. Bildirdi ki, dünya gerçəkliyi baxımdan ötəri, keçici, sonlu, qeyri-kamil olsa da, mənası əzəlidir, əbədidir, sonsuzdur, kamildir. Dünya öz Mənasından yaranıb. Yəni ötəri, keçici, sonlu, qeyri-kamil gerçəklik - əzəli, əbədi, sonsuz, kamil Mənadan yaranıb. Məna gerçəklikdən qıraqda deyil, gerçəkliyin özündədir, ancaq gerçəklikdən artıqdır, yüksəkdir. Necə ki, mənəviyyat, idrak bədəndə olsa da, bədəndən artıqıdır.

Dünyanın ayrı-ayrı olayları, biçimləri Mənadan yaranır, başqa sözlə, təzahür edir - görünüşə gəlir. Ancaq Dünya bütövlükdə yoxdan yaradılmayıb. Dünyanın olmayan vaxtı olmayıb, olmayan vaxtı olmayacaq da. Yoxdan varlıq yaranmaz, eləcə də varlıq mütləq yoxa çevrilməz. Göründüyü kimi, bu fikirlər Semit dünyabaxışının "dünya 6 gündə oyun-oyuncaq kimi yoxdan yaranıb və "Qiyamət günü" yoxa çevriləcək" kimi bədbin, anlamsız çağırışını alt-üst edir. Asif Atanın ortaya qoyduğu "Dünyanın Mənaca əzəli, əbədi olması" ideyası elm tərəfindən də təsdiqini tapır. Ancaq Semit baxışındakı "dünyanın faniliyi" ideyası elm tərəfindən təsdiqini tapmır.

İndi bu ideyaları əsas götürüb "Vətən" anlayışına yanaşmanın uğurlu-uğursuz olduğunu da aydınlaşdırmaq olar. Asif Ataya görə Vətən əbədidir, qutsaldır. Çünkü insanlığın, ulusal dəyərlərin, mədəniyyətin, dilin, tarixi aqibətin qurulduğu, qorunduğu, yaşadıldığı coğrafiya ötəri olay ola bilməz. Xalq öz varlığını dili, tarixi, mədəniyyəti ilə sürdürür. Varlığı yaşadan məkan müqəddəsdir. Semit baxışında isə bu fikirlər özünü doğrultmur. Başqa sözlə, fani, oyun-oyuncaq dünyada Vətən də fanidir, oyun-oyuncaqdır.

Bəs tutuşdurduğumuz dünyabaxışlarda insan necə qiymətləndirilir, onun dünyada yeri, rolu necədir?! - Asif Atanın Mütləqə İnam Dünyabaxışında dünya-insan birliyi var. İnsan da Mənaca əzəlidir, əbədidir, sonsuzdur, kamildir. Bu Mənanın adı İnsanlıqdır. İnsan biçimcə (cisimcə) ötəri, keçici, sonlu, qeyri-kamil olsa

da, özündə İnsanlıq Mənası daşıyır. İnsanın öz Mənasına bərabər yaşamaq olanağı (imkanı) var. Əslində o, dünyaya bunun üçün gəlir. Asif Atanın insana verdiyi tərif də bu olanaqdan qaynaqlanır: "İnsan - özündə Mütləq gəzdirən, bu səbəbdən də şəraitdən, mühitdən, cəmiyyətdən üstün olan, Mütləqiliyə can atan və Mütləqləşməyə qadir olan Ruhani varlıqdır". Ruhani varlıq, yəni mütləq inamlı, mütləq idraklı, mütləq mənəviyyatlı, mütləq iradəli. İnsan özündə daşıdığı bu olanağı üzə çıxara bilər. Bunun üçün o, "özüylədöyüş" yolu keçməli, ruhsal mənliyini təsdiq etməyə əngəl olan nə varsa, onunla döyüşməlidir. Bu əngəlləri Asif Ata "daxili şər" və "ictimai şər" adlandırır (içsəl və toplumsal şər). Bu fikri genişləndirmirik. Bu qonu ilə bağlı Asif Atanın kitabı var. Biz bu kitabı bir neçə yol çap etdirib yaymışıq. Kitab evlərinə də verilib.

Semit dünyabaxışında isə insana yanaşma tamam başqadır. Bu baxışa görə bəşər övladı fitrətən günahdan mayalanır. Bəşər soyunun başlanğıcı olan Adəm və Həvva doğub-törəmə qabiliyyətini üzə çıxardığına görə Allahın qəzəbinə düşüb. Onlar "günah" işlətmələri ucbatından Allahın mühitindən qovulmuşlardır... Əslində semit baxışının insana belə yanaşması özü günahdır. Bəri başdan insan öz gözündən salınır. Soyuna, kökünə şübhə ilə baxmağa köklənən insan kamil xilqətə yüksələ bilmir. Onun şüuruna daim yeridilir ki, Allahın bəndəsidir (köləsidir). O bu məntiqə etiraz edərsə, onda Allahın qarşısında dikbaşlıq (təkəbbürlülük) etmiş olar. Bir sözlə, Adəm və Həvva olayına görə bəşər övladı daim hədə qarşısında qoyulur. Bu baxışa tapınan insandan ulusalbəşəri şəxsiyyət yetişə bilməz. Bu çağa qədər bu baxışın ortamında ortaya çıxmış kimi görünən böyük şəxsiyyətlər, əslində öz ömürlərində yuxarıdakı məntiqi rədd edəndən sonra şəxsiyyət olmuş insanlardır...

Beləliklə, biz Asif Atanın Dünyabaxışının yönünü qısaca vurğuladıq. Onun Mütləqə İnam Təlimi İnsanlaşma Yoludur. Bu Təlimi yaşadan, həyata keçirən qurumu isə Ocaq adlanır. Təlim 6 ideyanı özündə birləşdirir. Bu ideyaların geniş açımını ötən "buraxılış"larımızda sunduğumuza görə burada yalnız adlarını saymaqla yetərlənəcəyik: - Mütləqə İnam; İnsanlaşma (Kamil İnsan); Ruhani Cəmiyyət (Xəlqi Birlik); Müstəqil Vətən; Özümlü Şərq; Ləyaqətli Bəşər.

Ocağın özünün yaşam qaydaları var: Törənlər (mərasimlər), Ailə Günü toplantıları, ruhsal Bayramlar, Amallaşma-Doğmalaşma günləri (son çağlar bu günlər "Qutsal Öyrənim Günü" ilə əvəz olunur), görüş-bağlantı qaydaları, ölü-götürmə və evlənmə qaydaları, Günsıra (təqvim), Ocağa Evlad qəbulu qaydaları, dünyabaxışın ideyalarını yaymaq, öyrətmək üçün səfərlər, görüşlər və b. k. Bunlar haqqında qabaqkı bölümlərdə geniş yazıldığı üçün qonunu bu yazıda davam eləmirik.

Sayğılı oxucu, biz ruhsal döyüş yolçularıyıq. Xalqımızda, Yurdumuzda əsilliyə qarşı nə varsa, ona direniş göstəririk. Biz istəyirik insan öz mənasına bərabər yaşasın. İnsan öz mənasına bərabər yaşayarsa, dünyanı fani deyil, əbədilik işığı kimi dərk eləyər. İnsanın insana münasibəti, dünyaya, vətənə, bəşərə münasibəti əsilləşdikcə, dünyanı gözümüzdə qiymətdən salan xurafat yalanları da ömürləri tərk edər. Dünya anlamca gözəldir, onu gözəl yaşayanda gözəl poeziya yaranır, həyat müqəddəs nəğmələr kimi ruhumuza doğmalaşır, xəyallarımıza ülviyyət sehri dolur. Günəş də ömrümüzün üfüqlərində doğur. Xoşbəxtlik göylərin işığı kimi qonur varlığımıza. Biz insanıq. İnsan bu cür yaşamağa haqq edir. Bu haqqı yaratmaq bəşər övladının başlıca məqsədinə çevrilməlidir. Ocaq bu məqsədi yetirən, işıqlandıran müqəddəs ünvandır.

"Qoy bir an da müqəddəslik odu ürəklərimizdən əksilməsin"! (Asif Ata).

**Yükümüzdən Böyük Fərəhimiz yoxdur! Atamız Var olsun!**

*10-12 Köçəri Ayı, 37- ci il.*

# Ocağın yazılı və elektron basın orqanları



*Günev Atalı*

Asif Atanın Mütləqə İnam Ocağı 38-ci ildir yol gəlir. Bu Yol böyük zəhmətlərlə başa gələn əməllərlə doğrulur. Əbədi sabaha köklənmiş Ocaq əməlləri başqa-başqa biçimlərdə öz əksini tapır. Bu biçimlərdən biri Ata-Ocaq ideyalarının yayılmasını şərtləndirən basın (mətbuat) sistemidir. Ocaq ideyalarını özündə daşıyan yazılar həm Ocaqdışı basın yayınlarında (ölkənin başqa-başqa mətbuat orqanlarında), həm də Ocaqiçi (Ocağın özünün) basın yayınlarında çap olunmuşdur. Ancaq Ocaqdışı yayın orqanlarında çap olunmalar Ocağın yaranmasından illər sonra baş tutmuşdur. Ocaq ideyaları, eləcə də Ocaq haqqındakı bilgilər qıraq basın yayınlarında çox dar, sınırlı (məhdud) çap olunduğu üçün Ocaq özü çağaşırı "Özəl Buraxılış"lar hazırlayıb yayımlamışdır. "Ata" sözünü, "peyğəmbər" sözünü, "Yeni İnam" sözünü ilk çağlar ölkə basın yayınları çap etməkdən çəkindikləri üçün "Özəl Buraxılış"larımız önəmli rol oynayırdı.

Ölkə basın yayınlarından



biri, Mingəçevirdə çıxan “Energetik” qəzeti ilk dəfə bu yöndən cəsarətli addım atdı. Belə ki, Ata Evladı Bağban Atalının (indi yaşamır) Ocaq ilsırası (tarixi) ilə 11-ci ildə adı çəkilən qəzetdə çap etdirdiyi yazılar, necə deyərlər, tilsimi sındırdı. Həmin dövr üçün belə bir hünərlə Asif Atanın peyğəmbərliyi bəyan edildi. Bundan sonra başqa basın yayınlarında da ara-sıra, sonralar isə sıx-sıx, Ocaq ideyaları və Asif Atanın ruhsal kimliyi çap olunmağa başladı.

Ocağın özünün isə ilk basın yayınını miladın 80-ci illərinin axırlarında, o çağlar Ocaqda olmuş Cəlilabadlılar hazırladı. Bu dərgi “Məbəd” adı daşıyırdı. “Məbəd”də Ocaq ideyaları həm Atanın qələmi ilə, həm də ayrı-ayrı Ocaqçıların yazıları ilə ifadə olunurdu. Zaman ötdükcə dərgilər daha əsaslı şəkildə Ata kimliyi, Ocağın yaranma nədənləri haqqında daha açıq səviyyədə yazılarla davam edirdi.

Sonralar isə, yuxarıda dediyimiz kimi, daha yetkin biçimdə və məzmunda qəzet biçimli “Özəl Buraxılış”lar ortaya gəldi. Bu günə kimi də davam edir. “Buraxılış”lar Ocağın yaşamını, yerişini, Atanın, Evladların, Ocaqsevər və Ocaqdostlarının, ayrı-ayrı məsələlərə toxunan Ocaqyönlü yazılarını topluma çatdırmaqdadır.

Ocaq ideyalarının yayılması işləri Ocağın özünəxas internet saytında da həyata keçirilir. Ocaq tədbirlərinin, görüşlərinin görüntülərinin və yazılarının bütün dünyada izlənilməsi internet araçılığı ilə həyata keçir.

Saytda Ocağın kitabları, Bayrağı, Mərasim və Bayramları, Günsıra və abesi, Atanın və Evladların görüşləri, törənlərdə deyilmiş fikirləri öz əksini tapır. Ocaq Evladlarının, özəllikcə Soylu Atalının yazılarının və kitablarının çapı da bu qəbildən




olan işlərdir.

37-ci ildən işıq üzü görən “İnam Evi” dərgisi (jurnalı) Soylu Atalının yönləndirməsi və Göylü Atalının ərdəmliyiylə yaranmışdır. Dərgidə Azərbaycanın dəyərlərinə, ulusal dəyərlərin yaradıcılarına Ocaq baxışı ilə yanaşı, başqa ulusal aydınların da baxışları yer tutur.

Bu dərgi ona görə çap olunur ki, bu gün ulusal dəyərləri təbliğ eləyən basın yayını yoxdur. Bütün basın yayınları, demək olar ki, siyasiləşib, partiyalaşıb. Bu baxımdan Mütləqə İnam Ocağı başqalarının görməli olduqları işi də hardasa öz üzərinə götürməli olur. İstək odur ki, ulusal dəyərləri topluma sunmaq, öyrətmək yönündə örnək yaransın.

**Atamız Var olsun!**

# Oxulun qutsallığını qaytarmaq gərəkdir

Yurdumuz Azərbaycanın toplumsal nizamı getdikcə pozulmaqdadır. Bunun başlıca nədənlərindən biri təhsil sisteminin bütünlüklə pozuntuya uğramasına görədir. Xalqın da gələcəyi gəncliyin necə qurulmasından, ulusal tərbiyəsindən, dövlətə, millətə, vətənə necə yanaşmasından çox asılıdır. Bu rahatsızlığımızdan dolayı ünlü fikir-qələm adamı, Mütləqə İnam Ocağının Yükümlüsü Soylu Atalının düşüncələrini soruşduq. İndi bu söhbəti oxucuların diqqətinə sunuruq.

**(Soylu Atalı ilə müsahibə)**

**Sorğu: Təhsil xalqın milli, mədəni əsaslarını qoruyan başlıca yönlərdən biridir. Ancaq dövlətin təhsilə yanaşması ürəkaçan deyil. Ona görə öyrətmənlərin (müəllimlərin) təhsilə yanaşması da yolavermək səviyyəsindədir. Niyə belədir?**

**Toplumun bəlli bir hissəsi Sovet təhsil sisteminə, bir hissəsi indiki təhsil sisteminə üstünlük verir. Bunlardan hansı yaxşıdır?**

**Cavab:** Mən təhsil üzrə mütəxəssis olmadığım üçün onun elmi quruluşuna toxuna bilməyəcəm. Yəni təhsili konkret mütəxəssislərin qiymətləndirməsi bir ayrı, mənim qiymətləndirməm bir ayrıdır. Mən milli dəyərlərin yayıcılığı ilə uğraşan bir aydın olaraq fikrimi sərgiləyə bilərəm. Yəni onun milli-mənəvi açıdan dəyərləndirilməsini səsləndirə bilərəm. Elə bizə əslində bu söhbət üçün gərək olan da budur. Bizə gərək olan ekspertlərin necə görmək istədikləri deyil, o bir ayrı qonudur. Tutuşdurmağa gəlincə, onların hərəsinin özünə xas üstünlükləri və qüsurları var. Bununla bağlı qısaca danışa bilərəm.

Sovet təhsil sistemi bir sıra cəhətləri ilə üstünlük təşkil edir. Mən Sovet təhsil sistemi görmüş bir adamam. Eyni halda bugünkü təhsilin yönü, yöntəmi ilə, təbii ki, tanışam. Birinci, Sovet təhsil sistemində üstünlük onda idi ki, tələb, ciddiyyət bugünkündən yüksək səviyyədə idi. İndiki təhsil sistemində biliklər test üsulu ilə yoxlanılır. Mənə elə gəlir ki, bu zəif üsuldur. Ona görə ki, arxayınçılıq formalaşır, əzbərçilik yaranır. Dərindən ağıl işləmir. Düzdür, deyirlər ki, test üsulu olmayanda, köhnə üsulla olanda xırda bir səbəbdən yüksək səviyyəli, yüksək bilikli öyrəncilər təhsildən qıraqda qalırdı. Belə istisnalar var idi, təbii ki. Tutaq ki, hansısa bir öyrənci yüksək hazırlıq keçib, təsadüfən, tutaq ki, çəkdiyi bileti zəif bilib, ya nəsə. Onu cavablandıranda zəif cavablandırır, yuxarı bal toplaya bilmir, qıraqda qalır. Testdə isə belədir ki, bəndlər verilir, ona baxanda o an yadına düşür. Ancaq bu da, yeri gələndə kütləviliyə gətirib çıxarır. Burda da təsadüflər az deyil. Hansısa zəif hazırlıqlı birinin təsadüfən qeyd elədiyi cavab doğru çıxır, qəbul olunur, ancaq sonra

baxırsan ki, bu heç düzəməlli təhsil ala bilmir, nə olsun ki, diplom alır. Onun da, bunun da belə təsadüfləri var. Ona görə heç birinə deyə bilməzsən ki, bu üsul bütöv bir ölçüdür.

Təhsil sistemində başlıca çatışmazlıq milli məsələlərin sıradan çıxarılmasıdır. Bu sovet təhsilində də vardı, indikində də. Ola bilsin Sovetdə bir az da aşırı idi. Orada öyrəncilik eləmək standartlar səviyyəsində idi, hər şey bəlli ideologiyanın tələblərinə uyğunlaşdırılırdı. Milli ideologiyanın qabardılması yasaq idi. Bu cəhətdən, əlbəttə, sovet təhsil sistemi daha qüsurlu sistem idi. İstər-istəməz imperiya maraqları var idi. İndiki təhsil sistemində isə, konkret mən bunu Azərbaycanın üzərində izah eləmək istəyirəm, çünkü ola bilər bu təhsil sisteminin başqa ölkələrdə üstünlükləri var. Konkret bu üstünlüklər bizim ölkəmizdə nə həyata keçir, nə də planda görükür. Bizim ölkəmizdə təhsil bünövrədən yanlışlar üzərində qurulub. İndiki çağda da təhsil sistemimizdə milli şüurun gəlişməsi həyata keçirilmir. Milli dəyərlərin öyrənilməsi həyata keçirilmir. Yenə də sxem var, yenə də qəlib var, pis anlamda standartlar var, hətta bu



standartlar olduqca zərərli bir şəkildə formalaşır. Buna görə mən deməzdim ki, sovet təhsil sistemi, ya da indiki kapitalist təhsil sistemi ölçüdür. Nə qədər ki, təhsil sistemi bu və başqa biçimdə quruluşun ideoloji tələblərinə bağlanır, o təhsildən mən hansısa bir üstünlük, gələcək ummuram, gözləmirəm. Başqa sözlə, quruluşa bağlı təhsil sistemlərində milli kadrların yetişməsini, milli düşünərlərin yetişməsini mən gözləmirəm. Əgər milli düşüncə formalaşacaqsa, o, mütləq bu təhsil sistemlərindən qıraqda formalaşacaq. Ona görə gə o təhsilin bu təhsildən üstünlüyü, əskikliyi sırf nisbi xarakter daşıyır və ölçü ola bilməz.

**Sorğu: Təhsil verənlərin səviyyəsi necə olmalıdır və bu gün o hansı səviyyədədir? Öyrənci böyüyüncə ən çox öyrətməni görür, ona yön verən, stimul verən öyrətməndir. Necə olmalıdır ki, təhsil aydınlığa aparsın?**

**Cavab:** Bundan öncəki cavabda bunun konturları vardı. Bir sistemdə ki bütün diqqət yalnız özünün maddi təminatını ödəməyə yönəlir, orda heç bir vaxt normal öyrətmənlikdən söhbət gedə bilməz. Bu gün öyrətmən, konkret desək, yalnız özünün maddi təminatını düşünür. Onu da əldə edə bilmir. Bu baxımdan onun təhsilə yanaşması uğurlu yanaşma ola bilməz. O, işini yola verir. Tək-tək vicdanlı öyrətmənlər bu deyilən qırağa çıxar. Bu çox az olur. Özünün təminatını düşünən öyrətmənlər, təbii ki, ciddi öyrətməyə meyilli deyillər. Bir də ki, çağdaş

öyrətmənin özü hansı səviyyədə peşəkarlığa yetibdir? Hansı səviyyədə mənəvi yetkinliyi vardır? O öyrətmənin özünü hansı təhsil sistemi tərbiyə edib? Bugünkü öyrətmən dünənki öyrəncidir. Dünənki öyrənci bugünkü öyrəncinin keçdiyi yolu keçib. Bu baxımdan onun özünün sağlam öyrətmənliyi sual altına düşür. Onun özü hansı toplumsal tərbiyəni alıb? Bundan çox şey asılıdır. Buna görə nə qədər ki, təhsildə milli konsepsiya işlənilmir, yəni təhsildə milli özünüdərk, milli kimliyi dərk, milli şüuru gəlişdirmək başlıca hədəfə çevrilmir, biz öyrətmənlərin xalqın balalarını uğurla öyrətməsi haqqında düşünə bilmərik. Bu, olduqca ciddi məsələdir.

Təhsildə rüşvətxorluq çox ciddi oturub. Öyrənci birinci sinfə qədəm qoyduğu andan rüşvət verir. Məktəb öyrəncidən pul yığır. Sovet təhsil sistemində belə şey yox idi və biz o dövrdə öyrətmənə Allah kimi baxırdıq. Öyrətmənin yanında artıq-əskik hərəkət eləmirdik. Nəsə təsadüfən hansısa qonaqlıqda müəllimin yanında biz çörək yemirdik. Öyrətməni görən kimi papağı başımızdan çıxarırdıq. Belə bir yanaşma var idi. Bu təhsil sisteminin, tərbiyə cəhətdən, necə qurulmasından irəli gəlir. Yenə deyirəm, Sovet təhsil sistemi ölçü deyil, ancaq bu bir avantaj idi.

Rüşvət məsələsi bütünlüklə hər şeyi alt-üst eləyir. Təhsilə dövlət qayğısının olmaması hər şeyi bəri başdan korlayır. Oxul (məktəb) qutsal ünvandır. Ancaq bu gün oxul ən pis ünvana çevrilib. Sayğısızlıq var oxula qarşı, halbuki oxul xalqın balalarının başlıca öyrədicisidir, qurucusudur. Oxulda öyrədilməlidir millətin tarixi, oxulda öyrədilməlidir dəyərlərimiz, oxulda öyrədilməlidir insana yanaşma, oxulda öyrədilməlidir bəşərə yanaşma. Bunların hamısı insanın formalaşmasında başlıca rol oynayır. Rol oynamalıdır. Mən demirəm ki, oxul insanın qurulmasında hər şeydir. Hər şey deyil, ancaq az şey də deyil. Ona görə oxula yanaşma kökündən dəyişilməlidir. Oxulun qutsallığını bərpa eləmək gərəkdir. Bunu dövlət yaratmalıdır. Buna öyrətmənlər əməl etməlidirlər.

Nə qədər ki, öyrənci oxulla ailənin arasında pis durumda qalacaq, ondan sağlam gələcək gözləmə. Öyrənci bilmir ki, öyrətməninə nə desin, bilmir ki, ailəsini necə başa salsın. Evdə yoxsul ailəsini necə başa salsın ki, oxul məndən filan qədər pul istəyir. Ailə də onun üstünə səsini qaldırıb çığırır ki, yoxdur. Bunu gedib oxulda öyrətməninə necə başa salsın. Qalır onunla bunun arasında və nifrət edir həyata da, insana da, oxula da. O nifrətin əsasını dərk eləmədiyi üçün öyrəncinin tərbiyəsi korlanır. Davranışını idarə edə bilmir. Necə gəldi, çox pis yanaşma sərgiləyir. Tərbiyəsi pozulanın, təbii ki, yanaşması da pozulmuş olacaq. Ona görə də öyrəncilərin içindən hər şey çıxır, sağlam milli kadrdan başqa. Çoxluq baxımından, oğru çıxır, əyri çıxır, narkoman çıxır, qatil çıxır, pozulma hər şeyə stimul verir. Sən də durub gileylənirsən ki, indiki gənclik tərbiyəsizdir. Dövlət özü bunu düşünməlidir. İndiki gəncliyi yönəldə bilmirsən, qoruya bilmirsən. Gənclik ağ kağızdır. Nə yazarsan odur. Ən böyük sorumluluğu dövlət daşıyır, yəni hakimiyət. Onun təhsil konsepsiyası düzgün işlənməlidir və ona düzgün əməl olunmalıdır. Öyrətmənə iki zənbili doldura biləcək əmək haqqı verir, öyrətmən də bütün paraları bəri başdan öyrəncidən yığır. Həm rəhbəri ondan bunu tələb edir, həm özü buna gedir. Bölürlər aralarında. Belə şey yolverilməzdir. Bu, xal-

qın gələcəyinə balta vurmaqdır.

**Sorğu: Əslində sonrakı sualıma da cavab aldım. Dövlətin yaxın gələcəkdə təhsil konsepsiyasında bir dəyişiklik etməsi görsənmir, durum da getdikcə pisləşir. Yanaşmalar da pisləşir. Çıxış yolu nədədir?**

**Cavab:** Mən hesab edirəm ki, oxulda çox fədakar, mənəviyyatlı, ləyaqətli öyrətmənlər bir araya gəlməlidir. Bunlar ciddi düşünməlidir, nə qədər çətin olsa da. Öyrətmən öyrənciləri məcbur etməməlidir ki, get mənim ad günümə bu qədər pul gətir. Tələb eləməli deyil ki, get mənə 8 mart bayramında bu qədər pul gətir. Get mənə filan bayramla bağlı pul gətir. Öyrətmən dilənçilikdən əl çəkməlidir. Öz öyrəncisinin qarşısında gözü kölgəli olmamalıdır. Hər şeyə belə asanlıqla arxa çevirmək olmaz. Demək olmaz ki, nə olur olsun, təki mən evə birtəhər artıq pul aparım dolanışığıma. Sən nəzərə almalısan ki, sənin elədiyin hərəkətlər təkcə xalqın balalarını pis duruma salmır, sənin öz evinin içində də tərbiyəni pozur. O balalardan sənin evinin içində də var. Bunu nəzərə almaq gərəkdir. Ona görə ləyaqətli olmaq gərəkdir. Millətin yaşamasını təmin edən dəyərləri öyrənmək və öyrətmək gərəkdir. Bir az insanlıq dərsi keçmək gərəkdir özünə və öyrəncisinə. Hər şeyi deyirlər insanlaşmadan başqa. Ona görə də vətənini, millətini, az da olsa, sevən öyrətmənlər varsa, belə bir çətin addımı atmalıdır, düşünməlidirlər bunu. Elə hal yaratmalıdırlar ki, onların sağlam əməlləri getdikcə bir sistemə çevrilsin. Qoy başqa əyri yollar öyrənən öyrətmənlər onlardan çəkinsinlər. İfşa olunacaqlarından qorxsunlar. Beləliklə, öz əməlləri ilə yuxarıda duran əyriləri də ifşa eləmiş olsunlar. Hələlik bunu eləmək mümkündür. Elə şeylər var ki, onlardan asılı deyil. Dövlətin başında duranlar talançılardır. Onlar nə dövlətin qədrini bilirlər, nə millətin. Onların bir işi var - talamaq. Onlar başqa şey haqqında fikirləşmirlər.

Üstdən aşağı hər şey pozula-pozula gəlir. İndi bəs nə edək, hansısa nöqtədə dayanmaq gərəkdir. Kimlərsə bunu dayandırmaq istəməlidir. Çalışmalıdır buna. Ləyaqət göstərməlidir, "əşi mənim nə borcuma" deməli deyil. Yoxsul yaşa, ancaq öyrənci ilə arandakı yanaşmanı öldürmə. Öyrətmənlik şərəfini ayaqlar altına atma. Öyrətmənlik adının qutsallığını qorumağa çalış. Onu göz bəbəyin hesab elə. Ona zədə dəyəndə gözünə zədə dəymiş kimi say. Ona zədə dəyəndə evinin uçması kimi qəbul elə. Ailənin dağılması kimi qəbul elə. Elə yanaşmaq gərək. Onda bu yanaşma getdikcə xalqın içində bir yön yarada bilər. Bu birlik əsasında xalqın etirazları da doğrula bilər. Bu etirazlar dövlətin başında dayananları məcbur edə bilər ki, düzgün addım götürün. Təhsilə düzgün yanaşma bəsləyin.

Bu gün üçün mən belə görürəm, gələcək ayrı şeydir. Gələcək böyük aşamadır. Bizim başladığımız Ruhsal Dirçəliş Hərəkatı qələbə çalmalıdır. Bu ayrı qonudur, ona görə də bununla bağlı burda danışmaq istəmirəm. Kimlərin ehtiyacı olarsa, biz onlarla ciddi söhbət apara bilərik.

**- Dəyərli fikirlərə görə təşəkkür edirəm.**

**Soylu Atalı:** Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

Atamız Var olsun!

***Sorğunu apardı:***
***Üstün Atalı***
*Köçəri Ayı, 37-ci il.*

# Deyimlar

**("Təzadlar" Bitiyindən)**

## HƏQİQƏT – YALAN

Həqiqət – həyata sığmayan.

Yalan – həyatın sığındığı.

## KAPİTALİZM – KOMMUNİZM

Kapitalizm – tək-tək Ağalaşma.

Kommunizm – hamılıqla Kölələşmə.

## CƏMİYYƏT BACARIQSIZLIĞI

Cəmiyyət İnsanilik ehtiyacından yaranmayıb, özünüqoruma ehtiyacından yaranıb.

Cəmiyyət vasitəsilə İnsan özünü xarici düşməndən qoruya bildi, daxili düşməndən qoruya bilmədi.

## RUHANİ UĞUR

Elə Qələbə qazan ki, heç kəs Məğlub olmasın!

Elə Ucal ki, heç kəs Alçalmasın!

Elə Böyü ki, heç kəs Kiçilməsin!

Elə Həyat sür ki, Həyata oxşamasın!

## AİLƏ

İnsaniliyin irsi Doğmalıq biçimi.

## CƏMİYYƏT – LƏYAQƏT

Cəmiyyətin aşağı pilləsində dayanıb İnsanlığın yuxarı pilləsinə çatmaq olar.

İnsanlığın aşağı pilləsində dayanıb cəmiyyətin yuxarı pilləsinə çatmaq olar.

## YAŞAMADAN ÖLMƏK

Vəsiqələrə gömülmək.
İmtiyazlara gömülmək.
Rütbələrə gömülmək.
Nişanlara gömülmək.

## UĞUR – MƏĞLUBİYYƏT

Bir dünya əldə etmək üçün bir qarış insanlıqdan keçirsənsə – Dünyadan keç!

Çünkü sənin bir qarış məğlubiyyətin bir Dünya qələbəndən böyükdür!

Çünkü İnsanlıq məğlub olursa – Qələbə yoxdur!

## QANUNİ ƏMƏL

**I**

Qanuna zorla əməl edilirsə – o, Qanun deyil.

Qanuna əməl edilmirsə – o, Qanun deyil.

Qanuna könüllü əməl edilirsə – o, Qanundur.

**II**

Ədalətsiz Qanuna əməl etmək – Qanunsuzluqdur.

Ədalətli Qanuna əməl etməmək – Qanunsuzluqdur.

**III**

Könüllü Qəbul etdiyin Qanuna borclusan.

Borcuna Mütləq Mənada əməl etməlisən.

Etmirsənsə – Qanunsuzluq törədirsən!

## QANUN ŞƏRHİ

Əsil Qanun – İnsanilikdir.

Başqa Qanunlar – onun şərhidir.

## MADDİYAT – İDEAL

Maddi yüksəliş – maddi məhrumiyyətə son qoyur.

Ancaq İnam yaratmır.
Ədalət yaratmır.
Həqiqət yaratmır.
Yəni İnsan yaratmır.

## İNSANLIQ VAXTI

Təzadlı Bəşər!

Tarixin Qədim, uğurların Zəngin, ancaq Mütləqdən kiçik!

Zahirə uymusan – Batindən uzaqlaşmısan!

Cismaniyə uymusan – Ruhanidən uzaqlaşmısan!

Heyvandan ayrıla bildin.

İnsanlıq vaxtıdır!

* * *

***(“Rəmzlər” Bitiyindən)***

**AYIQ – KEFLİ.** Kefli İsgəndəri eşitmədilər. Çünkü kefli idilər. İçərilərində ayıq olan bircə adam vardı: Kefli İsgəndər.

**ALLAHLILAR.** “Mənəm Allah!” – deyənlər əslində Allahı ən çox sevənlərdir.

**KOROĞLULUQ.** Koroğlu Həmzəyə inanmasaydı – Koroğlu yox, Həmzə olardı.

**DİV ÜRƏYİ.** Divin ürəyi özündən qıraqdadır, bu səbəbdən də qəddarlığında sərbəstdir.

**İSANIN ANASI.** Məryəm – adi qadın idi, ancaq İsanın anasıydı.

Bu səbəbdən də isaçılar onu müqəddəsləşdirdilər.

İsanın anası – adi qadın ola bilməzdi!

**MƏHKUM HAKİMLƏR.** Kafka və Coys bəşəri Məhkəmə ayağına çəkdilər.

Ancaq hakim ola bilmədilər. Çünkü İnamsız idilər, Amalsız idilər.

Məhkumlardan artıq deyildilər.

**İSGƏNDƏR ÖLÜMÜ.** – Mənə kömək edin, alimlər, filosoflar – qoymayın ölüm!

Xəzinədar, xəzinəmi yoxsullara payla – Allahlara dua oxusunlar – ölməyim!

Öldürməyi bacarırdı İsgəndər, ölməyi bacarmadı.



*Asif Ata (İnam Ata)*

Deyimlər

**QEYRƏTSİZLİK ÇEŞİDLƏRİ.** İnsan təkcə ağlaya–ağlaya qeyrətsiz olmur.

O, həm də gülə–gülə qeyrətsiz olur.

**İTİ GÖZ.** Zülmətə düşənlərin Gözü daha iti olmalıdır.

**ÖLÜMÜN QİYMƏTİ.** Sokratın Ölümü Dünyanı sarsıtmadı.

Çünkü Sokratın şəxsində Fikrə qıydılar.

İsanın ölümü Dünyanı sarsıtdı.

Çünkü İsanın şəxsində Ruha qıydılar.

**YAŞAMAMAQ!** Körpə yaşamır – yerimək öyrənir.

Cavan yaşamır – yaşamaq öyrənir.

Yetkin yaşamır – yaşamaq uğrunda çarpışır.

Qoca yaşamır – yaşamaq üçün çalışır.

**ZƏRDÜŞTÇÜLÜK.** Əsatirdən yaranan Din.

**İSLAM.** Dindən yaranan əsatir.

**DOĞMALIQ.** Cismani doğmalıq – cismin yaratdığı.

Ruhani doğmalıq – ruhun yaratdığı.

Birinci – təbiətin məhsuludur, ikinci – insanın.

**VƏTƏN.** Ruhun gördüyü.
Ruhun sevdiyi.
Ruhun inandığı.
Torpağın Ali Mənası.
Tarixin Ali Mənası.
Mütləqin yaxınlığı.

**VƏTƏNSİZLİK.** Doğulduğun yer sənə doğma deyilsə,

Doğmalar sənə doğma deyilsə,

Vətənsizsən!

Vətənsiz yaşamaq olmaz!

Vətəni axtar – tap, tapmasan – yarat.

**HEYVANİLİK – İNSANİLİK.** Ruh bədənə tabe olanda – Heyvanilik peyda olur.

Bədən Ruha tabe olanda – Ruhanilik peyda olur.

**YUNAN XƏYALI.** Gerçəkliyə bərabər olan.

**HİND XƏYALI.** Mahiyyətə bərabər olan.

**İBLİS.** Adamda yaşayan – İnsanda ölən.

**ALİM.** Bilən.

**FİLOSOF.** Görən.

**ELMİ CƏHALƏT.** Kainatı tanımayan.

**FƏLSƏFİ CƏHALƏT.** İnsanı tanımayan.

**NADİR ƏCAYİBLİK.** Döyüş – yırtıcılıq ehtizazı yaradır.

Döyüş – insandakı yırtıcılığa meydan açır.

Bu baxımdan o, Antiinsanidir.

Döyüş – həm də qorxmazlıq, mətanət, iradə rəmzidir.

Döyüşdə Mənəviliklə Yırtıcılıq birləşir.

“Yırtıcı mənəvilik” yaranır.

Nadir əcayiblik yaranır.

Döyüş məcburiyyəti İnsanlığa baha başa gəlir.

**TƏVAZÖKARLIQ.** Ləyaqətli Məğrurluq.

**NİTSŞE YALANI.** “Pişik olmaqdansa, Şir olmaq yaxşıdır!”

Nə pişikdən, nə də Şirdən İnsan olmaz!

**TARİXİN ÖYRƏTMƏDİYİ.** Qul quldardan asılı olduğu dərəcədə – Quldar da quldan asılıdır.

Bu Həqiqəti tarix insanlara öyrətmədi.

# Deyimlər

**YADLIQ.** Ruha xidmət edənlərlə bədənə xidmət edənlərin yadlığı – dəhşətdir!

**O DÜNYA MÜKAFATI.** Bu dünya Təmənnası.

**DÖVLƏTSİZLİK.** Midiya Dövləti.

Şirvanşahlar Dövləti.

Şah İsmayıl Dövləti.

Heç birində Müstəqilliyimiz bütöv olmayıb!

Heç birində Taleyimiz öz əlimizdə olmayıb!

**ƏLAQƏ.** Zorla yaranan – Zor yaradır.

**BİRİNCİ DÜNYA MÜHARİBƏSİ.** Dünyanı bölə bilməmək.

**İKİNCİ DÜNYA MÜHARİBƏSİ.** Dünyanı qoruya bilməmək.

**NÜVƏ SİLAHI.** İnsandakı Yırtıcının təntənəsi.

**HAMILIQLA AKTYORLUQ.** Cəmiyyətdə Hamı Aktyordur. Aktyorluq eləməyəni cəmiyyətdən qovurlar.

**TÜRK AQİBƏTİ.** Türk Dövləti yarandı.

Türk Ailəsi Dağıldı.

**ƏRƏBLƏR – TÜRKLƏR.** Ərəb – Eyşə qurşanan.

Türk – Döyüşə qurşanan.

**NUH GƏMİSİNİN SƏRNİŞİNLƏRİ.** Təzə Dünya yarada bilmədilər.

Çünkü Təzə İnsan deyildilər!

**İMTİNA YAŞI.** Budda Cavanlıqda İmtinaya yüksəldi.

Pavel Yetkinlikdə İmtinaya yüksəldi.

Tolstoy Qocalıqda İmtinaya yüksəldi.

Müqəddəslərin Yaşı – İmtina Tarixindən başlanır.

**ÖMÜR.** Cavanlıq – Yavanlıq.

Yetkinlik – Ötkünlük. Qocalıq – Ucalıq.

**ACİZLİK.** Ölümün öldürməkdən başqa əlindən heç nə gəlmir!

**MƏĞLUBEDİLMƏZLƏR.** Müqəddəslər Məğlubedilməzdir. Məhəmmədin Dinindən əl çəkmək olar – ancaq Məhəmmədi məğlub etmək olmaz!

İsanın Dinindən əl çəkmək olar – ancaq İsanı məğlub etmək olmaz!

Buddanın Dinindən əl çəkmək olar – ancaq Buddanı məğlub etmək olmaz!

Zərdüştün Dinindən əl çəkmək olar – ancaq Zərdüştü məğlub etmək olmaz!

Yan Qusu tonqalda yandırmaq olar – ancaq məğlub etmək olmaz!

Nəsiminin dərisini soymaq olar – ancaq Nəsimini məğlub etmək olmaz!

**QURAŞDIRILAN.** Şairdən Müqəddəs quraşdırırlar – alınmır!

Hakimdən Müqəddəs quraşdırırlar – alınmır!

İnqilabçıdan Müqəddəs quraşdırırlar – alınmır!

İrticaçıdan Müqəddəs quraşdırırlar – alınmır!

**BALACA İTLƏR.** İtlərin də böyükləri gedib – kiçikləri qalıb!..

**DÖVLƏT KƏLƏYİ.** Səndən aldığının bir hissəsini sənə qaytarır və "Mənə minnətdar ol!" – deyir.

**SÜLH UĞRUNDA MÜBARİZƏ.** Dünyaya Hakim olmaq üsullarından biri.

**FƏTH OLUNAN KOSMOS.** Talanan Yer.

**UZADILAN KÖMƏK ƏLİ.** Əliuzunluq.

**SİYASİ HAVADAR.** Gizli Hakim.

**BARIŞDIRANLAR.** Döyüşdürənlər.

**ÖLMƏZLİK.** Ölməzlər ölməyi bacarırlar.

**ANLAMAQ HƏDDİ.** Əgər yəhudilər İsanı başa düşsəydilər, İsa İsa olmazdı – Musa olardı.

**ÖLDÜRÜLƏNLƏR.** Puşkin – Dueldə ölmədi, Sarayda öldü!

Lermontov – Dueldə ölmədi, Məclisdə öldü!

Cavid – sürgündə ölmədi, Yurdunda öldü!

**QORXU.** Yırtıcılığın astar üzü.

**ƏN BÖYÜK KƏŞF.** İnsandakı Mütləqi görmək!

**ƏN BÖYÜK QƏTİYYƏT.** İmtina.

**ƏN BÖYÜK MƏSULİYYƏT.** İnsanlıq.

**SARDANAPAL PUÇLUĞU.** – Dünya Puçdur. Ye, İç, Keyf elə!

(Assuriya hökmdarı Sardanapalın dediyi).

Yemək, İçmək, Keyf eləmək – elə Puçluqdur.

**QADİRSİZLİK.** Tonqalda saysız–hesabsız Bədən yandırıldı, Ruh yandırılmadı.

Dar ağacından saysız–hesabsız cinayətkar asıldı – Cinayət asıl¬madı.

**CƏZA.** “Mən almanları Vicdan adlanan Kabusdan xilas etmək istəyirəm!” (Hitlerin dediyi...)

...Almanları Vicdan adlanan Ali Hakimin Cəzasına məhkum etdi.

**AŞİQLƏR.** Allaha vurulan – Məhəmməd.

İnsana vurulan – İsa...

Müqəddəsliyə vurulan – Yan Qus...

Həqiqətə vurulan – C. Bruno.

Məhəbbətə vurulan – Füzuli.

Azadlığa vurulan – Babək.

Əqidəyə vurulan – Nəsimi...

Saflığa vurulan – Rumi...

**QƏTİ TƏLƏB.** Ya xalq kimi xalq ol, ya da başqa xalqa qarış, yox ol!

**1937–ci il.** Şaqqalanan Ümid.

**ŞƏRQ GÜNAHI.** Əvvəl özünə qapıldı – dünyanı unutdu.

Sonra birdən–birə Dünyaya qapıldı – özünü unutdu.

**TÜRK GÜNAHI.** Böyük Hikmət yaratdı, Böyük Sənət yaratdı, Böyük Səltənət yaratdı – Böyük Vəhdət yaratmadı.

**TARİXİ “XİLASKARLAR”.** İngilis “Hindistana sivilizasiya gətirdi” – Hindistanı fəth etdi.

Napoleon “Avropaya azadlıq gətirdi” – Avropanı İşğal etdi.

Rus Çarı – Qafqaz xalqlarını “Ətalətdən qurtardı” – Əsarətə saldı...

**TARİXİN ÖYRƏTDİYİ.** Təmənnasız İnsanlar olub – Təmənnasız Ölkələr olmayıb.

Xilaskar İnsanlar olub – Xilaskar Ölkələr olmayıb.

Özünü xilas etməyəni – özgə xilas etməz.

Başı öz əlində olmayan – başsız qalar.

***Hazırladı: Göylü Atalı***

Deyimlər

# Ocağın Asif Atadan sonrakı dönəmdə ruhsal quruculuğu



*Nurtəkin Atalı*

Ruhsal quruculuq çətinliklər aşmaqla başa gəlir. Çünkü öncə insanın öz ruhunu yaratması gərəkdir. Özüylədöyüş ideyasının gerçəkləşməsi və Ocaqçının kamilliyə yetməsi əsas aşamadır. Ömür özümləşdikcə əməllər də əsilləşir. Bu əməllər insanlığa, milliliyə, bəşəriliyə qulluq edir. Yurdumuzda milliliyə qarşı atılan addımlar toplumu mənəvi aşınmaya uğradır. Bu cür özgələşdirmələrə qarşı dirənən tək qüvvə Mütləqə İnam Ocağıdır. Asif Atanın "İnsanlaşın - İnsanlaşdırın!" çağırışını ruhsal aqibətə çevirən Ocaqçılar ruhsal əməlləri ilə ruhaniyyat ilsırası (tarixi) yazırlar.

Asif Atanın sağlığında durum fərqli idi. Atanın halı, düşüncəsi, yönətimi ilə yaşayırdı Ocaq. Evladlar da hər şeyə Atanın tələbində, Atanın ortamında baxırdılar. Qəzetlərdə Atanın yazıları çap olunurdu, ara-sıra Evladlar görüşlər keçirirdi. Ancaq yetkin hal, bağımsız əməllər, təşəbbüslər yox idi. Atanın ölümündən sonrakı çətin çağlarda Soylu Atalı Ocağın yaşaması, davam eləməsi üçün bir sıra əməllərə başladı. Bu əməllərin birincisi - Asif Atanın 45 Bitiyini (kitabını) toplayıb hazırlamaq oldu.

Bitiqlər çap halında deyildi. Heç kimdə Bitiqlərin bütöv nüsxəsi yox idi. Bəziləri əlyazma halındaydı. Bu Bitiqlərin itib-batma qorxusu vardı. Onları bir yerə yığmaq, bir neçə ünvanda olmasını təmin etmək gərək idi. Soylu Atalı çap makinası aldı, bir neçə Ocaqçını bu işə cəlb edib, Ata Bitiqlərinin makinada (hər biri ən azı 5 nüsxədə) tam şəkildə yazılaraq ayrı-ayrı ünvanda olmasını təmin etdi. Soylu Atalı bu bitiqləri əl üsulu ilə üzləyərək Evladlara payladı. Bilgisayarda Ata Bitiqlərinin yığılması və çapı isə sonrakı çağlarda oldu. Bilgisayarda yığmaq, yoxlamaq, üzlətmək işlərini əsasən Göylü və Nurtəkin Atalılar yerinə yetirdilər. Asif Atanın 45 Bitiyi məzmununa görə 10 əsas, 3 Yan Bitiqlərdə toplandı. Bu bitiqlər həm latın, həm də Ocaq-türk abe'sində hazırlanıb üzləndi. Ocaq-türk



abe'si də Asif Atadan sonrakı dönəmdə hazırlanmışdır. Asif Atanın "yeni ulusal abe yaranmalıdır" fikrini əsas tutaraq, ixtisasca filoloq olan keçmiş bir Ocaqçı (İnamnur) ciddi əmək qoyub ləyaqətli addım atmışdır. O, Orxon-Yenisey abe'si əsasında yeni Ocaq-türk abe'si hazırlamışdır.

Bir neçə Ocaqçının evinə bu bitiqlərin qəbul olunması isə "Qutsal Onluğun qəbul törəni" şəklində həyata keçirildi. Bu törən Soylu Atalının ideyasıdır. Bu ideyanın gerçəkləşməsini də özü həyata keçirdi.

Asif Atanın son illərdə bir neçə bitiyi hazırlanmış, çap edilmişdir.

"Uluyurd Aqibəti - Bütöv Azərbaycan" bitiyi (Ulusəs Atalının yatırımı ilə), V - "Fəlsəfənin Təməli", VIII - "Özüllər Özülü", IX - "İçdən yaranma", X - "Hüquqdan Haqqa", II Yan Bitiq - "Yollaşan Aqibət" Bitiqləri (Soylu, Güntay, Göylü Atalıların yatırımı ilə) basılmış, kitab evlərinə paylanmışdır. Bəzi bitiqlərin sunulma tədbirləri də olmuşdur. Kitab klubunda Ocaqsevərlərlə tədbir keçirilmiş, "Yollaşan Aqibət" Bitiyi sunulmuş, televiziyalarda və qəzetlərdə yayınlanmışdı. Bu tədbirin təşkilatçılıq işini Göylü Atalı yerinə yetirmişdi. Bundan başqa Quba yerli televiziyasında Soylu Atalının və Ocaqdostu Ağşın Ağkəmərlinin qatqısı ilə veriliş hazırlanmış, həm bitiq sunulmuş, həm də bitiqdəki Ocaq ideyaları, o cümlədən muğam fəlsəfəsi dəyərləndirilmişdir.

Asif Atanın görüşlərində, tədbirlərdə yazılmış səs kasetləri Evladlar tərəfindən yazıya çevrilmiş, Göylü və Nurtəkin Atalıların bilgisayarda işləməsi və Soylu Atalının redaktorluğu sonucunda "Ata Səsi" Bitiyi yaranmışdır.

Bitiq həm latın, həm də Ocaq-türk abe'sində hazırlanmışdır.

Asif Atanın ədəbi tənqid yönündə yazdığı "İnam və Şübhə" bitiyi Göylü Atalı tərəfindən bilgisayarda yazılmış, bitiq şəklində (hər iki abe'də) Ocağın arxivinə verilmişdir.

Bundan başqa Soylu Atalının hazırladığı "Türkdən başlayan yeni Bəşər İnamı" adlı bitiq Ocaqdostu İlqar Türkoğlunun yatırımı ilə basılmışdır. Bu kitab Asif Ata İnamı, ideyaları haqqında yığcam bilgi sergiləyir. Azərbaycan və Türkiyə türkcələrində basılmış bitiq həmçinin Türkiyədə yayılmışdır.

Atanın çağında basın yayınlarında yalnız Atanın yazıları çap olunurdu. Atanın Azərbaycanın və dünyanın durumu ilə bağlı yazılarını o zamankı qəzetlər çox böyük həvəslə çap edirdilər. Atadan sonrakı dövrdə bir müddət bu sıradan boşluq oldu. Göylü Atalının basınla bağlantı qurub işləməsi o zamandan başladı. Soylu Atalının yazıları çap olunmağa başladı. Sonra Soylu Atalının yazılarını Nurtəkin, Göylü və Üstün Atalılar qəzetlərdə çap etdirməyə başladılar. Beləlik-



lə, Atadan sonra yaranan boşluq bəlli bir səviyyədə aradan qalxmağa başladı. Həm də yeni maraq yaranırdı. Çünkü hər kəs gözləyirdi ki, Asif Atanın ölümü ilə Ocaq bir qurum olaraq dayanacaq. Ancaq Ocaqçıların ardıcıl görüşlər keçirməsi, bölgələrə səfərlər etməsi, qəzetlərdə Soylu Atalının və Asif Atanın yazılarını çap etdirməsi, Ocaq tədbirlərinə jurnalistlərin dəvət olunması və tədbirlər haqqında yazıların qəzetlərdə çıxması Ocaq haqqındakı bu təsəvvürləri yanıltdı. Ocaq bir qurum olaraq yaşayır, bundan sonra da yaşayacaqdır.

Asif Atanın Ocaqçılar qarşısında qoyduğu tələblərdən biri də Xalqlaşma əməlidir. "Öyrəndiyin qədər öyrətməlisən" deyirdi Ata. Bu tələb Ocaq Yükümlüsü tərəfindən bu günə qədər qorunub həyata keçirilir. Atadan sonrakı dönəmdə ilk xalqlaşma əməlləri Bakı və Sumqayıt şəhərlərində - orta və yüksək oxullarda həyata keçirildi. Nurtəkin və Göylü Atalıların Soylu Atalıya görüş təşkil etmələri ilə bu işlər daim genişləndi.

O zaman hər döyülən qapı Ocaqçıların üzünə asanlıqla açılmırdı. Bəzi oxul rəhbərləri Asif Atanı tanıdıqlarından, ya da gəlişin məqsədinin Azərbaycançılığa, yurdçuluğa, millətçiliyə, insançılığa qulluq etməsinə inandıqdan sonra görüşün keçirilməsinə izin verirdilər. Bəziləri isə Ocağın rəsmi qurum olmamasından, təhsil şöbələrinin bu kimi görüşlərə izin verməməsindən dolayı görüşlərə qapı açmaqdan çəkinirdilər.



Ancaq keçirilən görüşlərdə öyrəncilərin və öyrətmənlərin heyrəti, marağı Soylu Atalının yenidən o oxullarda görüş keçirməsi ilə sonuclanırdı. Məsələn, Sumqayıtda bir oxulda Fikir Evi (Hər görüşdə Mütləqə İnam Dünyabaxışının bir ideyasının açılması) oxul rəhbərinin istəyi və təşəbbüsü ilə baş tutdu. O görüşlərdə öyrəncilərə paylanılan günsıralar, Ocaq abe'si, üzü artırılmış qəzetlərdə çıxan yazılar, Atanın üzü artırılmış yazıları və bitiqləri Ocaqçıların öz maddi xərclərilə başa gətirdikləri əməllər idi.

Görüşlər bölgələrə yayılmağa başladı.

Azərbaycanın 45-dən çox bölgəsinə səfərlər edildi. Bəzi bölgələrə bir neçə dəfə səfərlər oldu. Heç bir ünvanı öncədən tanımadan avtobusdan, ya qatardan düşərək birbaşa oxullara, Kitab evlərinə, Mədəniyyət evlərinə gedən Ocaqçılar ya kütləvi, ya da bireysəl görüşlər keçirir, Ata ideyalarını izhar edirdilər. Görüşləri Soylu Atalı keçirirdi. Sonradan o, Nurtəkin və Göylüyə "müstəqilləşin, siz də görüş keçirməlisiniz" dedi. Bundan sonra Nurtəkin və Göylü Atalılar bölgələrdə, eləcə də Sumqayıt və Bakı oxullarında görüşlər keçirdilər. Bəzən isə Ocaqçılar yaxın bölgələrə bir günlük səfər ediblər. Məsələn, elə olub ki, Göylü Atalı səhər tezdən Şamaxı bölgəsinə getmiş, oxulda görüş keçirmiş, kitab evinə Ocaq ədəbiyyatı vermiş, həmin gün Bakıya qayıtmışdır. Nurtəkin Atalının Sabirabad və Quba bölgələrinə də bu cür qısa vaxt içrə səfərləri olmuşdur.

Bəzi bölgələrə səfər edər-

kən həmin bölgənin yerli televiziyasında da çıxışlar olmuşdu. Mingəçevir, Quba, Yevlax, Qazax, Gəncə televiziyalarında Soylu Atalı ilə müsahibələr təşkil olunmuş və efirə verilmişdi.

Asif Atanın Bitiqləri basıldıqca bölgələrdəki Kitab Evlərinə də bağışlanıbdı.

Bölgələrə səfərlərdə yerli yazarlarla dönə-dönə görüşlər keçirilmişdir. Bir neçə yol Quba və Şabran bölgələrinin yazarları ilə Soylu Atalı görüşlər keçirib onlara Amal sorağı vermiş, Ocaq ədəbiyyatları bağışlamışdır.

Son çağlar İnamlı Atalı Bakıda və bölgələrdəki oxullarda Soylu Atalı ilə dönə-dönə görüşlər təşkil eləmişdir. Onun Laçın, Cəbrayıl bölgələrinin Bakıdakı oxullarında Soylu Atalıya təşkil etdiyi görüşlərdə onlarla öyrəncilərə Amal haqqında, Azərbaycanın mahiyyəti haqqında söhbətlər edilmiş, Ocaq ədəbiyyatları bağışlanmışdır. Sabirabad, Biləsuvar bölgələrində də Soylu Atalının təkrar görüşləri İnamlının təşkilatçılığı ilə baş tutmuşdur.



Son üç ildə Üstün Atalı Azərbaycanın bir sıra bölgələrinə səfərlər etmişdir. Üst-üstə 23 bölgəyə səfərində o, Mədəniyyət evlərinə, Kitab evlərinə, Gənclər mərkəzinə, muzeylərə və s. yerlərə gedərək Amal sorağı vermiş, Ocaq ədəbiyyatları bağışlamışdır.

Bundan başqa Göylü və Nurtəkin Atalıların ayrı-ayrı çağlarda Türkiyəyə səfərləri olmuşdur. Görüşdükləri insanlara Ocaq sorağı vermiş, Ocaq ədəbiyyatı bağışlamışlar.



Atagün Elində (Beyləqan) Günev Atalının Ocaq yönündən çalışması ayrıca bir səhifədir. Ocağın 33-cü ilində orda “Atagün” Ailəsi yaranmışdır. Hər ay Soylu Atalının və başqa Evladların oraya səfəri, “Ailə Günü” keçirmələri, Ocaqdostlarının yaranması və tədbirlərə qatılması özünəxas bir hal yaratmışdır.

Ayrı-ayrı çağlarda Ocaq dostları ilə Atagün Elinə və yaxın bölgələrə səfərlər olmuşdur. Günev Atalının dediyinə görə, Atagün Eli, Ağcabədi, Füzuli bölgələrində Asif Atanı yaxşı tanıyırlar. Amaldaşı Elana Atalı ilə birgə bölgələrə səfər edərkən, istər yas məclislərində, toy tədbirlərində, ya da Ata haqqında bilmək istəyən insanlarla görüşdə Mütləqə İnam Dünyabaxışı izhar edilmiş, ordakılara Ocaq ədəbiyyatla-

rı bağışlanmışdır.

Günev Atalı Amaldaşlarına söykənib yaşadığı köydə Ocaq memarlığına uyğun Məbəd tikintisini həyata keçirmişdir. Asif Atanın ilk dəfə basdırıldığı bağda Məbədin tikintisi hələ başa çatmasa da, ümumi quruluşu görənlərdə maraq yaradır.



Ümumən Ocaqçıların bir bölgəyə deyil, bir neçə bölgəyə eyni çağda səfərləri də az olmamışdır. Məsələn, 29-cu ildə Soylu, Göylü, Nurtəkin Atalılar Ağsu, Göyçay, Ucar, Mingəçevir bölgələrinə səfər edərkən dörd görüş Ağsuda, biri Göyçayda, dördü Ucarda, doqquz görüş Mingəçevirdə keçirmişlər. Bu səfərdə Soylu Atalının Mingəçevir televiziyasına müsahibəsi də olmuşdur. Eləcə də 33-cü ildə Soylu, İnamlı, Nurtəkin, Göylü Atalıların qatarla Ağstafa, Tovuz, Qazax bölgələrinə səfərləri olmuşdur. Səhər qatardan düşən kimi Ağstafa oxulunda Soylu Atalının görüşü keçirildi. Göylü Atalı isə Tovuz şəhərində oxulda görüş keçirmişdi. Ocaqçılar Qazax bölgəsinin Kitab Evində də görüş keçirdilər. Adı çəkilən bölgənin Kitab evinə Ocaq ədəbiyyatları bağışlanmışdır.

36-cı ildə Ocaqdostu İlham Mustafanın maşını ilə Soylu, Göylü və İnamlı Atalılar Sabirabad bölgəsinə səfər eləmiş, beş ünvanda görüş keçirmiş, öyrəncilərə Amal sorağı vermiş, Ocaq ədəbiyyatları bağışlamışlar.

Bölgələrə gedərkən Ocaqçıların tez-tez qarşılaşdığı sorulardan biri də “sizi kim maliyyələşdirir?” sorğusudur. Toplumumuz o qədər yad təbliğatlarla qarşılaşmışlar ki, yurdumuzda insanların boğazlarından kəsib fədakarlıq edərək, böyük işlər görməsini təəccüblə qarşılayırlar. Onlara dediyimiz söz: - axı hansı qıraq qüvvə bizi maliyyələşdirər ki, milli dəyərlərinizi təbliğ edin?! Hər cür yadlıqlara qarşı sistemli ideya gücü olan Mütləqə İnam dünyabaxışını soydaşlarımıza söyləməyi qıraqdan kim istəyər ki?! Təbii ki, heç bir qüvvə bunu etməz. Yalnız özündən keçən, millətinə bağlı olan, millətinin sabahını düşünən insanlar bunu edə bilər. Ocaq bu cür insanları yetirən bir dünyadır. Heç kimin maliyyəsindən asılı olmayan, ləyaqətli, qeyrətli, sədaqətli Evladlar birliyidir.

... Güney Azərbaycandan gələnlərlə də ayrı-ayrı çağlarda Soylu Atalının görüşləri keçirilmişdir. Eləcə də Kərkükdən gələnlərlə, başqa ölkələrdə yaşayan güneylilərdən Bakıya gələnlərlə çağaşırı Soylu Atalı görüşlər keçirmiş, “çıxış yolu nədir, gələcəyə baxış necə olmalıdır, necə qurulmalıyıq” yönündə söhbətlər aparmışdır.

Həmçinin Azərbaycan Dövlət radiosunun “Güney Azərbaycan” radiosunda, eləcə də Azərbaycan radyosunun başqa kanallarında Soylu Atalının ardıcıl çıxışları, müsahibələri efirə verilmişdir. Günaz TV-də Soylu Atalı ilə müsahibələr təşkil olunmuş, Ocaq ideyalarının açımı ilə bağlı verilişlər hazırlanmışdır.

Asif Atanın “Olan və Olmayan” bitiyində belə bir fikri var: “Ata Fəlsəfəsi” sözündə inadkar bir niyyət də yaşayır: Ata Fəlsəfəsinin Övladlar



Fəlsəfəsinə çevrilməsi!". Asif Atadan sonrakı dönəmdə Evladların özüylədöyüş əsasında özlərini yaratması, ruhsal əməlləri onların da bitiqlərinin yazılmasını ortaya çıxardı.

Belə ki, Soylu Atalının 3 bitiyi – "İnamçı Harayı", "İnam sorağında" və "İnsanlığın İnam Yolu" kitabları çap edilmiş, iki kitabı da çapa hazırlanmışdır. Nurtəkin Atalının "Heyrətimin inciləri", Günev Atalının "İnamlı illərimin harayı", Ulusəs Atalının "Sabahlı İnamım" bitiqləri də basılıb Kitab evlərinə sunuldu, Ocaq ədəbiyyatı kimi görüşlərdə bağışlanıldı. Bunların hər biri ayrıca olaydır.

Bitiqlər Evlad düşüncəsinin, halının, heyrətinin, inamının ifadəsidir.

## Yeni törənlərin yaranması

Asif Ata Ocaq Bayramlarının məzmununu və anlamını yazsa da, onun sağlığında bu bayramlar keçirilməmişdi. 20-ci ildən başlayaraq, Soylu Atalının yazdığı ideya-təşəbbüsü əsasında ilk dəfə "İnsanilik" Bayramı Ceyranbatan gölünün qırağındakı meşə zolağında – təbiət qoynunda keçirildi. Bayram öncəsi tonqal yandırıldı, tonqal yörəsində söz deyildi. Sonra gedişə uyğun olaraq, Ocaqçılar və Ocaq dostları Bayram qonuları üstə söz dedilər. Bu günə qədər də Bayramlar davam edir. Yalnız Bakıda deyil, Tovuz, Quba, Şəmkir, Atagün Eli, İsmayıllı bölgələrində də yerli insanların qatqısı ilə keçirilən bayramlar məzmununa və gedişinə görə qıraqdakılarda maraq doğurmuşdu.

Yeni törənlərdən biri də "İnam Evi günü" törənidir. "İnam Evi Günü" törəni Soylu Atalının ideyası və təşəbbüsü ilə gerçəkləşmişdir.

Nə məsciddə, nə kilsədə insan insanlığına çata bilmir. Özünü yarada bilmir, öz içsəl olanaqlarını (imkanlarını) üzə çıxara bilmir. Din yaşayır, insan yaşamır. Din yaşayır, millət köhnəlir. İnam Evi isə insanın, millətin ruhsal varolma olanağıdır. İnsan yaradır, davam edir, özünəxaslığını qoruyur, bireysəl keyfiyyətlərini yaradıb millətində yaşadır. Millət də bireysəl keyfiyyətlər üzərində davam edir, özünəxaslığını, bənzərsizliyini qoruyur. "İnam Evi Günü" törənində bu yöndə qonulardan danışılır, milli varolma yolları göstərilir. Soylu Atalının fikri ilə desək, "İnam Evinin məzmunu milli-insani qurtuluş məsələsidir".

Asif Atanı öyrənmək, öyrətmək açısından Göylü Atalının təşəbbüsü ilə Amallaşma-Doğmalaşma Günü "Qutsal Öyrənim Günü" tədbirləri kimi keçirilməyə başlayıb. Bu tədbirlərdə Atanın hansısa Bitiyi ardıcıl bölmə-bölmə öyrənilib danışılır, danışana, ya da Ocağın Yükümlüsünə sorğular verilir, araşdırılır.

## Beşikbaşı və Yas quralı

Asif Atanın sağlığında Yas quralı tətbiq edilməmişdi. Evladlar ailə qurarkən Beşikbaşı törəni isə Atanın uğurlaması və onlara verdiyi Ruhsal sənədlə keçirilməyə başlamışdı. Asif Ata öləndə Ocaqçıların əlində Ocağaxas Yas quralı yox idi. Soylu Atalı yas quralı yönündə ilk gediş yazısını Asif Ata ölərkən yazdı və Ocaqda bu qu-

ralla Asif Ata torpağa basdırıldı. Asif Atadan sonra yas və evlənmə qurallarının bitiq (kitab) şəklində yazılması zəruriliyi ortaya çıxdı. Hər iki qural bitiyini Soylu Atalı yazdı və bu qurallar bitiq şəklində basılaraq (hər iki abe'də – həm latın, həm Ocaq-türk abe`sində) Ocaqçılara, Ocaq tədbirlərinə gələn dostlara sunuldu, eləcə də Kitab evlərinə verildi, ayrı-ayrı adamlara bağışlanıldı.

Ocaqçıların yaxınlarının və ya Ocaq dostlarının ölümü ilə bağlı Ocaqçılar bu yas qurallarını həyata keçirirlər. İstər Bakıda, Sumqayıtda, istərsə də bölgələrdə keçirilən bu qurallar yurdumuzdakı yad gələnəklərə qarşı dirənişdir. Bu tədbirlərdə insana dəyər verilməsi, millilik və İnsançılıq yönündə söhbətlər aparılması xalqın ruhuna doğma olduğuna görə insanlar sevgi və doğmalıqla qarşılayır.

Beşikbaşı törənlərinin də keçirilməsi xüsusi olaydır. Ailə quran gənclərə beşik bağışlanması, onlara Ata Bitiyinin həm latın, həm Ocaq-türk abe'sində bağışlanması, Ocaq Yükümlüsünün Ailəyə uğurlaması, Ailə məzmunu, Ailəyə yanaşma haqqında söhbətlər hər zaman maraq və heyrətlə qarşılanmışdır.

Daha bir Ocaq ədəbiyyatı da yazılıb basılır - hər il buraxılan "Özəl Buraxılış" görüşlərdə bağışlanmaq üçün



xüsusi önəm daşıyır. Buraxılış Ocaq haqqında qısa bilgi, ayrı-ayrı milli-insani qonularda Ocaqçıların baxışlarını özündə əks etdirir. 37-ci ildə isə "İnam Evi" adlı jurnalın buraxılması gündəliyə gəldi. Bu jurnalda həm Ocaqçıların, həm klassik, həm də çağdaş araşdırmaçı, ədəbiyyatçı, milli dəyərlərlə uğraşan insanların yazıları verilmişdir.

Hər il basılan Günsıra (təqvim) vizitləri də görüşlərdə paylanır və maraq yaradır. Ocağa xas olaraq ayların, günlərin adının milliləşdirilməsi hər zaman başqalarında maraq və doğmalıq duyğusu yaradıb. Çünkü hər bir dəyərin öz dilində, öz abendə olması qürurvericidir.

Ocaq tədbirlərində Ocaq bayrağı asılır. Asif Atanın şəkli olan bu bayraq Ocaqçılar tərəfindən sayğı ilə qarşılanıb, tədbir bitdikdən sonra da sayğı ilə götürülür. Asif Atanın sağlığında əllə hazırlanmış 2 bayraq vardı. İndi İnam Evində, Atagün Elində və başqa Ocaqçıların evlərində yeni üsulla basılmış Ocaq Bayrağı vardır.

Ocağın ruhsal Ailələri – "Atagün", "Uluyol-Hünər" və "Uluférəh" Ailələri hər ay Ailə günləri keçirir, Amallaşma, Kamilləşmə, Xalqlaşma hesabatı verir, bu tədbirlərə qonaqlar çağırırlar. Bu da Ocaq yayıcılığı baxımından gərəklidir. Keçirilən hər bir Ocaq tədbiri, istər görüntüsü, istər fotoşəkli, arxiv şəklində yığılır, qorunub saxlanılır. Bu işlə əsasən Göylü və Nurtəkin Atalılar uğraşır. Bundan başqa hər bir Ocaq tədbirinin səsdən yazıya köçürülməsi, bitiq şəklində hazırlanıb Ocağa sunulması da Ruhaniy-

yat ilsırası (tarixi) üçün qiymətlidir. Bu tədbirlərin yazı halına gəlməsində Nurtəkin, Göylü, Üstün, Türkel və Ulunur Atalıların əməyi xüsusidir. Ocaq Yükümlüsü isə Ocaqla bağlı hər bir yazını, bitiyi tərtib edir, ön söz yazır, redaktə edir və onun bir əməl kimi gerçəkləşməsinə nəzarət edir.

Göylü Atalının əməllərindən biri də Ata ömrü, Ocaq ideyaları, Soylu Atalının əsərləri üstə hazırladığı filmlərdir. Soylu Atalının senarisi ilə yazıdığı bu filmlərin hazırlanması Ata haqqında, Ocaq haqqında ümumi təsəvvür və baxış yaradır.

Soylu Atalının "Azərbaycanın fəlakətlərindən dərs götürək" rubrikası altında təşkil etdiyi millətçi aydınlarla söhbətləri həm Ocaq ideyalarının, həm də milli dərdlərimizin açımı və çıxış yollarının ifadəsi baxımından çox dəyərlidir. Türkmənçay bağlaşması, Türk ulusunun sorunları, milli dəyərlər, Asif Ata dünyabaxışının açılması yönündə olan bu söhbətlər eyitim xarakteri daşıyır. Bu söhbətlərdən hazırlanmış bitiqlər dəyərlidir. Bu söhbətlərin davamı olaraq Soylu Atalının yaratdığı Türkel Araşdırma Qurumunun söhbətləri də bu məzmundadır. Güney Azərbaycandakı prosesləri araşdırmaq, Babək, Ş.İ.Xətai haqqında söhbətlər, yeni millətçiliyin başlamasının gərəkliyi haqqında açımlar bu günümüzdə çox aktualdır. Bu dialoqlardan iki üzdə (cilddə) hazırlanmış "Özgürlüyümüz - Bütövlüyümüz - Bağımsızlığımız" bitiyi də Ocaq Yükümlüsünün tərtibatı, redaktəsi, Göylü və Nurtəkin Atalıların bilgisayar işi ilə hazırlanıb araya gətirildi.

Atadan sonrakı dönəmin Ocaq əməlləri sonsuzdur. Bunların hamısını bu yazıda vurğulamaq mümkün deyil. Ancaq hər bir əməlin başlanğıcından sonuna qədər ciddi nizam və quruculuq var. Hər bir ruhsal əməlin arxasında gərgin əmək, sevgi, doğmalıq dayanır. Hər bir əməlin arxasında Ocaqçı aşiqliyi dayanır. Hər bir əməl çətinliklə başa gəlsə də sonucu fərəhdir. Çünkü yüksək niyyətə, məqsədə qulluq edir. Bu əməllər Atanın qarşısında sorumluluq yaşadır. Bu sorumluluq Ocaqçı üçün qanaddır – daha yüksək zirvələri fəth etmək inamı, inadı və eşqidir.

**Atamız Var olsun!**




| | Günəş (Mart) | Çiçək (Aprel) | İşıq (May) | Şölə (İyun) | Od (İyul) | Qürub (Avqust) |
|---|---|---|---|---|---|---|
| Arzu | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | 1 8 15 22 29 |
| Ümid | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | 2 9 16 23 30 |
| Dözüm | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | 3 10 17 24 31 |
| Mərhəm | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | 4 11 18 25 |
| Qismət | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | 5 12 19 26 |
| Murad | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | 6 13 20 27 |
| İnam | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | 7 14 21 28 |

- 38 - Amallaşma ili

| | Ata (Sentyabr) | Xəzan (Oktyabr) | Yağış (Noyabr) | Sərt (Dekabr) | Qar (Yanvar) | Köçəri (Fevral) |
|---|---|---|---|---|---|---|
| Arzu | 5 12 19 26 | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | 2 9 16 23 30 | 6 13 20 27 |
| Ümid | 6 13 20 27 | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | 3 10 17 24 31 | 7 14 21 28 |
| Dözüm | 7 14 21 28 | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | 4 11 18 25 | 1 8 15 22 |
| Mərhəm | 1 8 15 22 29 | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | 5 12 19 26 | 2 9 16 23 |
| Qismət | 2 9 16 23 30 | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | 6 13 20 27 | 3 10 17 24 |
| Murad | 3 10 17 24 | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | 7 14 21 28 | 4 11 18 25 |
| İnam | 4 11 18 25 | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | 1 8 15 22 29 | 5 12 19 26 |

www.asifataocagi.com; www.turkel-aq.org
(051) 585-56-97; (050) 527-70-50; (050) 533-91-77

**İnam Evi dərgisinin Özəl Buraxılışı**

15 Günəş Ayı, 38-ci il
(15.03.2016)

**Buraxılışa sorumlu:**
Göylü Atalı

**Tel:** (051) 585 56 97;
(055) 565 36 97;
(050) 527 70 50
**www.asifataocagi.com**
**www.turkel-aq.org**
E-mail: *goylum@mail.ru*
*soyluatali@mail.ru*